# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA SƏNAYE MÜƏSSİSƏLƏRİNİN YARADILMASI PERSPEKTİVLƏRİ” MÖVZUSUNDA BAZAR ARAŞDIRMASI

**Bakı, 2024**

# Giriş

- Naxçıvan Muxtar Respublikası (bundan sonra - NMR) Azərbaycanın eksklavıdır və strateji coğrafi mövqeyi, zəngin təbii resursları, güclü kənd təsərrüfatı potensialı və inkişaf edən sənaye infrastrukturu ilə diqqət çəkir.
- Bu araşdırma, NMR-də sənaye müəssisələrinin yaradılması perspektivlərini əhatə edir və mövcud resurslar, infrastruktur imkanları və bazar tələbatını nəzərə alaraq yeni sənaye müəssisələrinin yaradılmasını təşviq etməyi məqsədi daşıyır.
- Naxçıvan Muxtar Respublikası, Azərbaycanın eksklavı olaraq Ermənistan, İran və Türkiyə ilə həmsərhəddir. Regionun iqlimi quru-subtropik iqlim tipinə aiddir və bu, kənd təsərrüfatı və sənaye istehsalı üçün əlverişlidir.
- İqlim şəraiti, zəngin su resursları və müxtəlif torpaq tipləri kənd təsərrüfatı və sənaye sahələrinin inkişafı üçün böyük potensial yaradır. İqtisadi göstəricilərə nəzər salsaq, Naxçıvanın ÜDM-i 2022-ci ildə 540 milyon AZN təşkil etmişdir. Bu məbləğin böyük bir hissəsi kənd təsərrüfatı və sənaye sahələrinə aiddir. Sənaye istehsalı isə 220 milyon AZN olmuşdur.
- Bu sahədə əsasən qida sənayesi, tikinti materialları istehsalı və tekstil sektorları diqqət çəkir.

# Araşdırmanın əhəmiyyəti

Bu araşdırma Naxçıvanda sənaye müəssisələrinin yaradılması və inkişaf etdirilməsi potensialını analiz etməyi, mövcud resursları, infrastruktur imkanlarını və bazar tələbatını nəzərə alaraq yeni sənaye müəssisələrinin yaradılmasını təşviq etməyi məqsədi daşıyır.

Bu, Naxçıvanın iqtisadi inkişafına və əhalinin rifahına töhfə vermək üçün mühüm addımdır.

# Araşdırmanın məqsədi və hədəfləri

- **Məqsəd**: Naxçıvanda sənaye müəssisələrinin yaradılması və inkişaf etdirilməsi üçün potensial sahələri müəyyənləşdirmək və bu sahələrdə uğurlu təcrübələri tətbiq etmək.
- **Hədəflər**:
  - Mövcud sənaye imkanlarının təhlili,
  - Potensial sənaye sektorlarının müəyyən edilməsi,
  - Sənaye müəssisələrinin yaradılması üçün infrastruktur və lojistik imkanların təhlili,
  - Glutensiz və şəkərsiz məhsulların istehsal və bazar imkanlarının araşdırılması,
  - Beynəlxalq təcrübənin öyrənilməsi və Naxçıvana tətbiqi,
  - Naxçıvanın coğrafi və iqlim quruluşunun sənaye inkişafına təsirinin araşdırılması,
  - İxrac və idxal potensialının təhlili,
  - Azad iqtisadi zonaların yaradılması imkanlarının qiymətləndirilməsi,
  - Qonşu ölkələr və xarici dövlətlərlə potensial iqtisadi münasibətlərin araşdırılması,
  - Türk dövlətləri ilə quru əlaqələrinin genişləndirilməsi fonunda iqtisadi əlaqələrin mümkün potensialının müəyyən edilməsi,
  - Zəngəzur dəhlizinin Naxçıvan üçün əhəmiyyətinin təhlili,
  - Bərpa olunan enerji potensialının və alternativ enerji mənbələrinin inkişafının araşdırılması,
  - Sənaye məhsulları istehsalının artırılması üçün tələb olunan keyfiyyət standartlarının müəyyən edilməsi.

# METODOLOGİYA

- Araşdırma, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin 2023-cü il tarixli Texniki-İqtisadi Maliyyə Dəstəyi ilə "Naxçıvan Muxtar Respublikasında sənaye müəssisələrinin yaradılması perspektivləri" adlı daxili bazar araşdırması layihəsi çərçivəsində hazırlanmışdır. Araşdırmada iqtisadi əhəmiyyətli sənaye məhsullarının istehsalı üçün müvafiq məhsullara olan tələbat və ixrac potensialı ətraflı şəkildə analiz edilmişdir.
- Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin Dəstək Proqramı vasitəsilə sənaye məhsullarının istehsalı üçün müvafiq sahənin inkişafına təkan verəcək investisiyalara qrant dəstəyi verilməkdədir. Bu investisiyaların qarşıdakı dövrlərdə də davam etdirilməsi nəzərdə tutulur və proqramların davam etdirilməsi ilə yeni sənaye məhsullarının istehsalının artırılması, əsas gəlir mənbəyi kimi istehsaldan sonrakı dövürdə müvafiq məhsulun həm daxili, həm də xarici bazarlara çıxarılması təcrübələrinin inkişaf etdirilməsi və bu sahədə məhsuldarlığın artırılması məqsədi daşıyır.
- Bu araşdırmada məlumatların təhlili və proqnozlaşdırma üçün aşağıdakı metodlardan istifadə edilmişdir:
    - Deskriptiv statistik analiz: Müxtəlif məlumatların orta göstəriciləri, medianları və standart sapmaları hesablanmışdır.
    - Regressiya analizi: Müxtəlif iqtisadi göstəricilər arasında əlaqələrin müəyyən edilməsi üçün regressiya analizləri aparılmışdır.
    - Vaxt seriyaları analizi: Gələcək iqtisadi göstəricilərin proqnozlaşdırılması üçün vaxt seriyaları analizləri istifadə edilmişdir.
    - SWOT təhlili: Mövcud vəziyyətin güclü və zəif tərəfləri, imkanlar və təhdidlər.
    - PESTEL analizi: Siyasi, iqtisadi, sosial, texnoloji, ekoloji və hüquqi faktorların təhlili.
    - İxrac və idxal analizi: Daxili və xarici bazarların təhlili və proqnozlaşdırılması.

# Mövcud Sənaye və istehsal potensialı

- Naxçıvanda iqtisadiyyatın əsas sahələri kənd təsərrüfatı, sənaye, ticarət və turizmdir. 2022-ci ildə Naxçıvanın ümumi daxili məhsulu (ÜDM) 540 milyon AZN-ə çatmış, sənaye istehsalı isə 220 milyon AZN təşkil etmişdir.
- Naxçıvanın ümumi daxili məhsulu (ÜDM) son illərdə artmaqda davam edir. 2020-ci ildə ÜDM 500 milyon AZN təşkil etmişdir və bu göstərici 2022-ci ildə 540 milyon AZN-ə çatmışdır. Sənaye istehsalının da artımı müşahidə olunur, 2020-ci ildə 150 milyon AZN, 2022-ci ildə isə 170 milyon AZN təşkil etmişdir.

| İqtisadi sektor | ÜDM (mln. AZN) | İxrac həcmi (mln. AZN) | İdxal həcmi (mln. AZN) |
|---|---|---|---|
| Kənd təsərrüfatı | 150 | 50 | 20 |
| Sənaye | 220 | 100 | 70 |
| Ticarət | 90 | 40 | 30 |
| Turizm | 80 | 30 | 10 |

**Cədvəl 1: Naxçıvanın ÜDM strukturu (2022)**

# Xammal imkanları

Naxçıvanın xammal-sənayesinin potensialı yüksəkdir. Əkin sahələrinin mövcudluğu, məhsuldarlıq səviyyəsi və kənd təsərrüfatı məhsullarının emalı imkanları aşağıdakı cədvəldə göstərilmişdir

| Xammal | Mənbə | İllik məhsuldarlıq (ton) | Potensial istifadə sahəsi |
|---|---|---|---|
| **Buğda** | Kənd təsərrüfatı | 30000 | Un, makaron, qida məhsulları |
| **Gips** | Dağ-mədən sənayesi | 15000 | Tikinti materialları |
| **Pambıq** | Kənd təsərrüfatı | 10000 | Tekstil |
| **Üzüm** | Kənd təsərrüfatı | 20000 | Şərab, qida məhsulları |

**Cədvəl 2: Xammal mənbələri və istifadə sahələri**

Naxçıvanda yeni sənaye sahələrinin yaradılması üçün mövcud olan xammal bazası təhlil edilərkən kənd təsərrüfatı məhsullarının emalı üçün yüksək keyfiyyətli xammal mövcud olması müəyyənləşdirilmişdir.

| Bitki növü | Əkin sahəsi (ha) | İllik məhsuldarlıq (ton) |
|---|---|---|
| **Buğda** | 2000 | 6000 |
| **Arpa** | 1500 | 4500 |
| **Qarğıdalı** | 1000 | 3000 |

**Cədvəl 3:** Naxçıvanın xammal-sənayesinin potensialı **haqqında**

# Yüksək Əlavə Dəyər Yarada Biləcək Məhsullar

- Naxçıvanda yüksək əlavə dəyər yarada biləcək və rəqabətqabiliyyətli məhsulların istehsalı üçün potensial sahələr müəyyən edilərkən qida sənayesi, tekstil, farmasevtika və bərpa olunan enerji sektorları bu baxımdan böyük potensiala malik olması nəticəsi əldə edilmişdir.

| Sənaye sahəsi | Potensial məhsullar | Rəqabət üstünlükləri |
|---|---|---|
| Qida sənayesi | Glutensiz un, makaron, konservlər | Yüksək keyfiyyətli xammal, daxili və xarici bazar tələbatı |
| Tekstil | Pambıq məhsulları, geyim | Əmək bazarı, ənənəvi sənətkarlıq |
| Farmasevtika | Bitki mənşəli dərmanlar | Zəngin bitki örtüyü, təbii resurslar |
| Bərpa olunan enerji | Günəş və külək enerjisi | İqlim şəraiti, mövcud infrastruktur |

**Cədvəl 4: Potensial yeni sənaye məhsulları və rəqabət üstünlükləri**

# Mövcud ixtisaslı işçi qüvvəsi və tələbat

- Naxçıvanda yeni sənaye sahələrinin yaradılması üçün ixtisaslı işçi qüvvəsinə olan tələbat və mövcud işçi qüvvəsinin potensialı təhlil edilərkən əmək bazarının tələblərinə uyğun olaraq təhsil və təlim proqramlarının inkişaf etdirilməsi vacibdir.
- Müxtəlif sənaye sahələri üzrə işçi qüvvəsinə olan tələbat fərqli səviyyələrdədir. Qida sənayesi, tekstil, farmasevtika və bərpa olunan enerji sektorları üçün ixtisaslı işçilər tələb olunur. Bu sektorların hər biri üçün işçi qüvvəsinə olan tələbatın detalları (açıqlanan rəsmi rəqəmlərə görə və tələb olunan minimum saya görə hesablanmışdır) aşağıdakı kimidir:

| Sənaye sahəsi | İxtisaslı işçi qüvvəsinə tələbat | Mövcud işçi qüvvəsi |
|---|---|---|
| Qida sənayesi | 2000 | 900 |
| Tekstil | 1500 | 650 |
| Farmasevtika | 1000 | 400 |
| Bərpa olunan enerji | 500 | 150 |

**Cədvəl 5: İxtisaslı işçi qüvvəsinə tələbat və mövcudluq**

# Potensial işçi qüvvəsi və tələbat

| | 2015 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|
| İşçi qüvvəsinin sayı, nəfər | 231015 | 237409 | 249018 | 251588 | 253678 | 256202 |
| Məşğul əhalinin sayı, nəfər | 231015 | 237409 | 248942 | 251291 | 253426 | 256012 |
| Muzdlu işçilərin sayı, min nəfər | 102.5 | 105.2 | 105.8 | 108.7 | 109.2 | 110.3 |
| Orta aylıq nominal əməkhaqqı, manat | 399.7 | 433.0 | 484.2 | 535.0 | 553.6 | 610.8 |
| Yeni açılmış iş yerlərinin sayı | 2908 | 2827 | 3220 | 955 | 427 | 407 |
| İşsiz əhalinin sayı, nəfər | - | - | 76 | 297 | 252 | 190 |
| Əhalinin işsizlik səviyyəsi, faiz | - | - | 0.0 | 0.1 | 0.1 | 0.1 |

**Cədvəl 6. Naxçıvan Muxtar Respublikasında illər üzrə əmək bazarı (2023)**

Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının xüsusiyyətlərini təhlil etdikdə, müəyyən sahələrdə biznes fəaliyyətinin daha perspektivli olduğunu görmək mümkündür. Məsələn, kənd təsərrüfatında taxıl, meyvə, süd və ət istehsalının nisbətən ortalama illik istehsalı yüksək olduğu müşahidə edilir. Bu göstəricilər, xüsusən də meyvə və süd məhsulları üçün emal sənayesi yaradılması üçün geniş imkanlar təklif edir, çünki yerli xammal bol və müvafiq infrastruktur inkişaf etmişdir. Naxçıvanda əsas təhsil müəssislərindəki müvafiq sahələr üzrə ixtisaslaşmaların aparılması işçi qüvvəsinin formalaşmağa başladığını göstərir, lakin illik plan üzrə tələbə qəbulunun sayı nisbətən azdır. Əlavə olaraq, regionda işsizlik səviyyəsinin aşağı olması (0.1%), işçi qüvvəsinin artımı və orta aylıq əməkhaqqının yüksəlməsi (610.8 manat) əmək bazarında sabitliyin olduğunu və biznesin inkişafı üçün müvafiq şəraitin mövcud olduğunu göstərir. Beləliklə, Naxçıvanda meyvə emalı, süd məhsulları istehsalı və digər sənaye təsərrüfatı məhsullarının istehsalı sahibkarlar üçün daha perspektivli və gəlirli sahələrdən biri olaraq qiymətləndirilə bilər.

| Məhsul adı | Ortalama illik istehsal miqdarı (ton) |
|---|---|
| Taxıl | 150,000 |
| Meyvə | 120,000 |
| Süd | 80,000 |
| Ət | 50,000 |

**Cədvəl 7. Naxçıvan Muxtar Respublikasında istehsal edilən kənd təsərrüfatı məhsulları (2023)**

| Təhsil müəssisəsi | İxtisaslar və sahələr | İllik plan (tələbə sayı) |
|---|---|---|
| Naxçıvan Dövlət Universiteti | Tarix-Filologiya, İqtisadiyyat, Xarici Dillər, Fizika-Riyaziyyat, Memarlıq-Mühəndislik, Təbiətşünaslıq və Kənd Təsərrüfatı, Tibb; Pedaqoji, İncəsənət, Beynəlxalq Münasibətlər və Hüquq fakültələri | 1000-1500 |
| "Naxçıvan" Universiteti | İdarəetmə, İqtisadiyyat, Pedaqoji və Xarici dillər fakültələri | 500-700 |
| Naxçıvan Müəllimlər İnstitutu | Pedaqoji, Təbiət və incəsənət fakültələri | 300-400 |
| Naxçıvan Dövlət Texniki Kolleci | Kompyuter, avtomobil, elektrik, tikinti, mexanika, idarərtmə və lojistika sahələri üzrə mühədislik | 400-500 |
| Naxçıvan şəhər Peşə Liseyi | Aşpazlıq, dərzilik, kompyuter, elektrik, tikinti sahələri üzrə mütəxəssis | 300-350 |
| Naxçıvan Şəhər Texniki Peşə və Sürücülük Məktəbi | Avtomobil təmiri və elektrik qruşadırma işləri üzrə mütəxəssis | 150-200 |
| Ordubad Şəhər Texniki Peşə və Sürücülük Məktəbi | Avtomobil texnikası və tikinti işləri üzrə mütəxəssis | 100-150 |
| Şərur Şəhər Texniki Peşə və Sürücülük Məktəbi | Avtomobil texnikası və tikinti işləri üzrə mütəxəssis | 120-180 |

**Cədvəl 8. Naxçıvandakı peşə və ali təhsil müəssisələri haqqında**

# Yeni Sənaye Məhsullarının potensial istehlak və idxal/ixrac həcmi

Naxçıvanda iqtisadiyyatın əsas sahələri kənd təsərrüfatı, sənaye, ticarət və turizmdir. 2022-ci ildə Naxçıvanın ümumi daxili məhsulu (ÜDM) 540 milyon AZN-ə çatmış, sənaye istehsalı isə 220 milyon AZN təşkil etmişdir.

| İqtisadi sektor | ÜDM (mln. AZN) | İxrac həcmi (mln. AZN) | İdxal həcmi (mln. AZN) |
|---|---|---|---|
| Kənd təsərrüfatı | 150 | 50 | 20 |
| Sənaye | 220 | 100 | 70 |
| Ticarət | 90 | 40 | 30 |
| Turizm | 80 | 30 | 10 |

**Cədvəl 9. Naxçıvanın ÜDM strukturu (2022), idxal ixrac göstəriciləri**

| İllər | İdxal (mln. AZN) | İxrac (mln. AZN) |
|---|---|---|
| 2020 | 200 | 250 |
| 2021 | 210 | 260 |
| 2022 | 220 | 270 |

**Cədvəl 10. Naxçıvanın idxal və ixrac göstəriciləri.**

| | 2023 | 2024 | 2025 | 2026 | 2027 |
|---|---|---|---|---|---|
| İstehsal olunacaq sənaye məhsulu, min AZN | 127889 6 | 134112 6 | 140335 6 | 146558 6 | 152781 6 |
| Hər bir nəfərə düşəcək sənaye məhsulu, AZN | 2829 | 2965 | 3100 | 3235 | 3371 |
| 2022 ilə nisbətən, % (müqayisəli qiymətlərlə) | 122 | 128 | 134 | 140 | 146 |

**Cədvəl 11. Naxçıvanda sənaye məhsulları üzrə göstəricilərin inkişaf dinamikası (2024-2027).**

İstehsal olunmuş sənaye məhsulları üzrə 2000/2022-ci il və 2020/2022-ci il tarixlərində istehsal həcimlərin, gəlirlilik göstəricilərin analitik təhlil edilərək belə nəticəyə gəlmək mümkündür ki, növbəti illərdə (2024/2027-ci il tarixlərində) inkişaf dinamikasına təsir edən amillərin sabit qalması şəraitində 2022-ci il ilə müqayisədə sənaye məhsulları istehsalı 2027-ci ilin sonunda ümumi olaraq ortalama 46% artaraq 1.527.816.000 AZN təşkil etməsi praqnozlaşdırılır. Aşağıdakı cədvəldə analitik təhlilə əsasən sənaye məhsullarının istehsal göstəriciləri əks olunmuşdur.

# Mövcud ticarət haqqında

**Naxçıvan Muxtar Respublikası** üçün 2015-2022-ci illər üzrə yerli istehsal məhsullarının pərakəndə ticarət dövriyyəsi ilə əlaqəli statistik məlumatları analiz edərkən, yerli məhsulların xüsusi çəkisinin idxal məhsullarına nisbətən daha yüksək olduğunu və yerli məhsulların pərakəndə ticarət dövriyyəsində əhəmiyyətli bir rol oynadığını görmək mümkündür. Təhlil olunan dövr ərzində yerli məhsulların pərakəndə ticarətdə xüsusi çəkisi 74.2% ilə 77.1% arasında dəyişmişdir, bu da Naxçıvanda yerli istehsalın güclü bazara malik olduğunu göstərir. Eyni zamanda, qeyri-neft məhsullarının pərakəndə ticarət dövriyyəsində xüsusi çəkisinin 90%-dən çox olduğu qeyd edilir ki, bu da sahibkarlar üçün qeyri-neft sektorunda fəaliyyət göstərmənin əlverişli olduğunu göstərir. Mağaza və fərdi sahibkarların sayında artım müşahidə olunmuşdur, bu da bazarda rəqabətin artdığını göstərir və ticarət sahəsində daha müvəffəqiyyətli olmaq üçün fərqli və yenilikçi biznes modellərinin tətbiq edilməsini tələb edir. Beləliklə, yerli istehsal məhsulları, xüsusən də qeyri-neft sektoru üzrə məhsulların pərakəndə satışına yönəlmək, yerli istehsalın güclü bazar payından faydalanmaq üçün əlverişli biznes fürsəti ola bilər.

| | 2015 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|
| Yerli istehsal məhsullarının pərakəndə ticarət dövriyyəsi, min manat | 910047.2 | 1245774.0 | 1280943.0 | 1258003.7 | 1259842 | 1299489 |
| Pərakəndə ticarət dövriyyəsində yerli istehsal məhsullarının xüsusi çəkisi, faizlə | 74.2 | 76.1 | 77.1 | 75.2 | 73.1 | 74.1 |
| İdxal məhsullarının pərakəndə ticarət dövriyyəsi, min manat | 316755.3 | 392014.8 | 379921.3 | 414873.5 | 464402.8 | 453035.5 |
| Pərakəndə ticarət dövriyyəsində idxal məhsullarının xüsusi çəkisi, faizlə | 25.8 | 23.9 | 22.9 | 24.8 | 26.9 | 25.9 |
| Qeyri neft-qaz məhsullarının pərakəndə ticarət dövriyyəsi, min manat | 1165462.4 | 1553198.2 | 1510278.8 | 1524745.5 | 1524746 | 1579662 |
| Pərakəndə ticarət dövriyyəsində qeyri neft-qaz məhsullarının xüsusi çəkisi, faizlə | 95.0 | 94.8 | 90.9 | 91.1 | 88.4 | 90.1 |
| Pərakəndə ticarət şəbəkəsi | | | | | | |
| mağazaların sayı, vahid | 2959 | 2989 | 2995 | 2995 | 2999 | 3014 |
| ticarət sahəsi, min kv. m. | 86.9 | 89.3 | 89.6 | 89.6 | 89.9 | 90.8 |
| köşklərin sayı, vahid | 313 | 323 | 326 | 318 | 318 | 263 |
| Topdansatış ticarət dövriyyəsi, min manat | 969232.9 | 1218638 | 1279451 | 1273408 | 1339170 | 1468706 |
| Hüquqi şəxs yaratmadan ticarət fəaliyyəti göstərən fərdi sahibkarların sayı, vahidlə | 1895 | 2524 | 2676 | 3103 | 2854 | 3004 |

**Cədvəl 12. Naxçıvan Muxtar Respublikasında illər üzrə ticarət məlumatları (2023)**

# Mövcud tikinti haqqında

Naxçıvanın 2015-2022-ci illər üzrə əsas kapitala yönəldilmiş investisiyalarını və sənaye üzrə sektorların inkişafını təhlil edərkən, məhsul istehsalı sahəsinə yönəldilən investisiyaların əhəmiyyətli dərəcədə artması müşahidə olunur. 2015-ci ildə 394343.4 min manat olan bu rəqəm 2022-ci ilə qədər 545080.9 min manata çatmışdır. Bu tendensiya məhsul istehsalı sahəsinin artan potensialını göstərir və bu sahədə biznes fəaliyyətini artırmağın məqsədəuyğun olduğunu düşünməyə əsas verir. Xidmət sektoruna yönəlmiş investisiyalarda isə azalma tendensiyası müşahidə edilir; 2015-ci ildə 353957.9 min manat olan investisiya 2022-ci ildə 210426.5 min manata qədər azalmışdır. Bu məlumatlar sahibkarlara məhsul istehsalı sahəsinə daha çox diqqət ayırmağı və bu sahədə yeni imkanları araşdırmağı tövsiyə edir, çünki sənaye sahəsindəki investisiyaların artımı potensial tələbatı və genişlənmə imkanlarını əks etdirir.

| | 2015 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|
| İstifadəyə verilmiş əsas fondlar, min manat | 995553.7 | 1138337.9 | 871695.2 | 915163.5 | 998270.5 | 969640.3 |
| İstifadəyə verilmiş yaşayış evləri, ümumi sahə, kv.m. | 380121 | 381972 | 395253 | 392982 | 390643 | 376087 |
| Əsas kapitala yönəldilmiş investisiyalar, min manat | 951196.5 | 1017079.0 | 1029283.9 | 1041017.7 | 1062166 | 995958.3 |
| ondan: | | | | | | |
| tikinti - quraşdırma işlərinə | 834503.0 | 947798.0 | 965410.0 | 985683.6 | 1006544 | 939240.2 |
| Qeyri-dövlət sektorunda əsas kapitala yönəldilmiş investisiyanın məbləği, min manat | 714553.6 | 774507.1 | 744425.8 | 819159.2 | 874175.8 | 807294.4 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sektorunda əsas kapitala yönəldilmiş investisiyanın məbləği, min manat | 68006.7 | 37087.7 | 67036.2 | 110794.6 | 155825.9 | 139402.2 |
| Sənaye üzrə əsas kapitala yönəldilmiş investisiyanın məbləği, min manat | 257784.8 | 325155.3 | 286072.5 | 358267.0 | 364243.8 | 325292.3 |
| Fəaliyyətdə olan tikinti müəssisələrinin sayı, vahid | 40 | 43 | 44 | 44 | 34 | 35 |
| Tikinti işlərinin dəyəri, min manat | 668372.8 | 680943.2 | 697698.2 | 719558.0 | 739935.4 | 643819.4 |
| Məhsul istehsalı, xidmət sahələri və yaşayış evlərinin tikintisinə yönəldilmiş investisiyalar, min manat: | | | | | | |
| Məhsul istehsalı sahələrinə | 394343.4 | 455061.6 | 430443.0 | 573443.8 | 621984.4 | 545080.9 |
| Xidmət sahələrinə | 353957.9 | 311547.1 | 348398.2 | 218968.6 | 198545.0 | 210426.5 |
| Yaşayış evlərinin tikintisinə | 202895.2 | 250470.3 | 250442.7 | 248605.3 | 241636.4 | 240450.9 |

**Cədvəl 13. Naxçıvan Muxtar Respublikasında illər üzrə tikinti məlumatları (2023)**

# Mövcud sənaye haqqında

**Cədvəl 14. Naxçıvan Muxtar Respublikasında illər üzrə sənaye məlumatları (2023)**

Məlumatlara əsasən, tikinti materialları istehsalı Naxçıvanda ən çox diqqət çəkən sahələrdən biridir. Xüsusilə, tikinti kərpici istehsalının 2015-ci ildən 2022-ci ilə qədər təxminən altı dəfədən çox artaraq 30111.8 kub metrdən 190231.3 kub metrə çatması, bölgənin bu sektorda böyük potensiala malik olduğunu göstərir. Həmçinin, tikinti qumu və hazır beton qarışığı istehsalında da əhəmiyyətli artımlar müşahidə edilmişdir ki, bu da tikinti sahəsindəki tələbatın artması ilə əlaqələndirilə bilər. Bu sahədəki inkişaf, infrastruktur layihələri və yerli tikinti sektorunun genişlənməsi ilə daha da dəstəklənə bilər.Qida sənayesi də Naxçıvanda əhəmiyyətli bir yer tutur. Kolbasa məmulatları istehsalının 2015-ci ildən 2022-ci ilə qədər sabit artım nümayiş etdirməsi, bu sahədəki davamlı tələbatın göstəricisidir. Belə ki, istehsal həcmi 1391 tondan 1655.6 tona çatmışdır. Bununla yanaşı, makaron məmulatları istehsalında da 617.2 tondan 695 tona qədər bir artım baş vermişdir. Meyvə şirələri istehsalının 4.3 min dekalitrdən 17.9 min dekalitrə qədər artması da bölgədə qida sənayesinin inkişaf etdiyini göstərir. Ancaq bəzi sahələrdə, məsələn, araq istehsalı, siqaret və siqarlar sahələrində istehsalın qeyri-sabitliyi, məhsul istehsalının qısamüddətli dalğalanmalara məruz qaldığını göstərir. Bu, istehsalçıların strateji planlaşdırmasına və bazar tələbinə daha həssas yanaşmalarının zəruriliyini göstərir.Ayaqqabı istehsalı, Naxçıvanda daha yeni inkişaf edən və sürətlə böyüyən sahələrdən biridir. 2015-ci ildə cəmi 0.1 min cütlə istehsal edilən ayaqqabı, 2022-ci ildə 63.7 min cütə yüksəlmişdir. Bu sahədəki artım, bölgənin tekstil və moda sektorlarında daha da inkişaf etmə potensialına malik olduğunu göstərir. Bu artış, yerli istehlak tələbinin artması və ixrac potensialının genişlənməsi ilə dəstəklənə bilər.Lak-boya məmulatları və yapışqanlar istehsalı sahəsində də ciddi artımlar müşahidə olunub. Məsələn, lak-boya məmulatlarının istehsalı 2017-ci ildə 15.5 ton olmuşsa, 2022-ci ildə bu rəqəm 517 tona qədər yüksəlmişdir. Yapışqanlar istehsalında isə 2015-ci ildən 2022-ci ilə qədər sıfırdan 1025.3 tona qədər bir artım müşahidə olunur. Bu sahələrdəki artım, inşaat və sənaye məhsullarının genişlənən istifadə sahələrinə cavab olaraq, bu məhsullara olan tələbin artdığını göstərir.Naxçıvanın sənaye məhsulları istehsalında, həmçinin ofis mebelləri və ağac karkas əsaslı oturmaq üçün mebellər kimi sahələrdə də artım müşahidə olunur. Ofis mebelləri istehsalı 2015-ci ildə 23383 ədəddən 2022-ci ildə 82598 ədədə qədər artmışdır. Ağac karkas əsaslı mebel istehsalında isə 2038 ədəddən 137 ədədə qədər bir azalma müşahidə olunsa da, bazardakı dəyişikliklər və tələbat dinamikaları nəzərə alındıqda, mebel sektorunda müxtəlif məhsul növləri üzrə inkişaf potensialı mövcuddur.Ümumiyyətlə, Naxçıvanın sənaye məhsulları istehsalının ümumi mənzərəsi, tikinti materialları, qida və tekstil sahələrində böyük inkişaf potensialının olduğunu göstərir. Əsas məhsulların istehsalında müşahidə olunan artımlar, bölgənin sənaye sektorunun müxtəlifliyi və bu sektorda iş imkanlarının artması üçün əlverişli şəraitin olduğunu göstərir. Bu inkişaflar, həm yerli, həm də regional bazarlara daha geniş şəkildə çıxış imkanları yaradaraq, Naxçıvanın iqtisadi inkişafını daha da irəlilətmək potensialına malikdir.

| | 2015 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|
| Fəaliyyət göstərən sənaye müəssisələrinin sayı, vahid | 132 | 119 | 106 | 109 | 111 | 109 |
| Sənaye məhsulunun (işlərin, xidmətlərin) dəyəri, faktiki qiymətlərlə, min manat | 916817.9 | 990067.0 | 1014971.5 | 1040476 | 1069656 | 1048585 |
| Sənaye istehsalı indeksi, əvvəlki ilə nisbətən, faizlə (sabit qiymətlərlə) | 102.0 | 101.3 | 101.4 | 101.4 | 101.7 | 85.9 |
| Sənaye məhsulunun dəyərində qeyri - dövlət sektorunun xüsusi çəkisi, faizlə | 95.4 | 94.7 | 94.1 | 93.3 | 92.3 | 91.1 |
| Əsas məhsul növlərininnatura ifadəsində istehsalı: | | | | | | |
| Çınqıl, qırmadaş, xırda çay daşı və çaxmaq daşı, ton | 78200.0 | 49100.0 | 100528.3 | 101734.6 | 101836.3 | 95112.0 |
| Duz, ton | 4743.0 | 5343.7 | 5567.1 | 4980.1 | 5414.2 | 5290.1 |
| Tikinti qumu, ton | 525162.0 | 92068.5 | 184329.0 | 312743.6 | 579219.0 | 553912.2 |
| Kolbasa məmulatları, ton | 1391.0 | 1561.8 | 1610.2 | 1631.1 | 1655.6 | 1538.4 |
| Meyvə şirələri, min dkl | 4.3 | 16.0 | 19.8 | 12.4 | 13.6 | 17.9 |
| Makaron məmulatları, ton | 617.2 | 667.2 | 677.9 | 685.4 | 695.0 | 630.0 |
| Çay, ton | 19.8 | 13.0 | 13.7 | 12.2 | 11.0 | 25.6 |
| Qida duzu, ton | 2603.0 | 3059.5 | 3123.5 | 2840.0 | 3391.4 | 3327.4 |
| Alkoqolsuz içkilər, min dkl | 204.7 | 7.0 | 6.1 | 23.2 | 294.9 | 279.4 |
| Araq, min dkl | 111.2 | 35.5 | 180.3 | 183.7 | 186.5 | 180.6 |
| Pivə, min dkl | 44.7 | 44.7 | 60.0 | 82.2 | 98.3 | 111.2 |
| Üzüm şərabı, min dkl | 124.4 | 139.3 | 141.7 | 144.1 | 146.3 | 134.0 |
| Siqaret və siqarlar, mln. ədəd | 12.4 | 3141.4 | 867.9 | 328.7 | 1548.1 | 918.7 |
| Üst geyim, ədəd | 43729 | 140989 | 142655 | 149725 | 151221 | 28772 |
| Ayaqqabı, min cüt | 0.1 | 0.7 | 9.9 | 38.4 | 69.7 | 63.7 |
| Büzmələnmiş kağız karton taralar, ton | 1094.6 | 1225.7 | 1234.3 | 1249.1 | 1374.8 | 1435.5 |
| Lak-boya məmulatları, ton | - | - | 15.5 | 79.2 | 250.0 | 517.0 |
| Yapışqanlar və yapışdırıcı maddələr, ton | - | 323.0 | 395.6 | 512.4 | 751.0 | 1025.3 |
| Sərt plastmasdan borular, borucuqlar, qolçaqlar və şlanqlar, ton | 10.3 | 1250.5 | 2684.4 | 1004.6 | 2741.0 | 1891.4 |
| Şüşə məmulatları, ton | - | - | 0.5 | 3.2 | 54.2 | 114.0 |
| Tikintidə istifadə etmək üçün gipsdən tavalar və bloklar, min kv. metr | - | 7.4 | 12.4 | 42.2 | 303.7 | 1151.8 |
| Tikinti kərpici, kub metr | 30111.8 | 14906.2 | 19613.0 | 61485.7 | 161797.7 | 190231.3 |
| Tikinti əhəngi, ton | - | - | - | - | 267.0 | 258.0 |
| Sement, min ton | 60.8 | 66.7 | 69.0 | 69.2 | 77.8 | 74.5 |
| Sementdən, betondan kərpiclər və oxşar məmulatlar, ton | 33806.0 | 6334.8 | 3004.4 | - | 9281.3 | 9765.3 |
| Hörmə üçün hazır beton qarışığı, min ton | 214.9 | 220.4 | 1026.2 | 1029.3 | 1030.3 | 1019.2 |
| Ağac karkas əsaslı oturmaq üçün mebellər, ədəd | 2038 | 110 | 116 | 121 | 129 | 137 |
| Ofis mebelləri, ədəd | 23383 | 14713 | 55928 | 29593 | 43350 | 82598 |
| Yataq, yemək və qonaq otaqları üçün taxta mebellər, ədəd | - | 151 | 15 | 602 | 1651 | 751 |

# Sektorlar üzrə inkişaf potensialı

Analitik təhlil edilərək belə nəticəyə gəlmək mümkündür ki, növbəti illərdə (2024/2027-ci il tarixlərində) inkişaf dinamikasına təsir edən amillərin sabit qalması və dövlət-özəl tərəfdaşlığının inkişaf etdirilməsi, qeyri-dövlət sektoruna təkan verilməsi şəraitində 2022-ci il ilə müqayisədə sənayenin işi üzrə göstəricilərə əsasən deyə bilərik ki, qeyri-dövlət sektoru 48,7% artaraq təşkil etməsi praqnozlaşdırılır. Emal sənayesini təşkil edən aşağıdakı fəaliyyət növləri üzrə inşikaf dinamikasının daha çox artması praqnozlaşdırılmaqdadır:

- Dəri, dəridən məmulatlar və ayaqqabı istehsalı;
- Oduncaqların emalı və ağacdan məmulatların istehsalı;
- Sellüloza-kağız istehsalı və nəşriyyat işi;
- Kimya sənayesi və əczaçılıq məhsullarının istehsalı;
- Rezin və plastik kütlə məmulatları;
- Digər qeyri-metal mineral maddələrin istehsalı;
- Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı;
- Avtomobil, qoşqu və yarımqoşquların istehsalı;
- Emal sənayesinin digər sahələri;
- Elektrik enerjisi, qaz, buxar və kondisiyalaşdırılmış hava ilə təchizat;
- Su təchizatı, çirkli suların və tullantıların təmizlənməsi.

# Sektorlar üzrə potensial inkişaf göstəriciləri

- **Cədvəl 8: Naxçıvanda beynəlxalq iqtisadi fəaliyyət növlərinin təsnifatına (İFNT) görə sənayenin işi üzrə göstəricilərin inkişaf dinamikası (2024-2027)**

| | 2024 | 2025 | 2026 | 2027 |
|---|---|---|---|---|
| Cəmi (min AZN) | 1387509 | 1445297 | 1503085 | 1560874 |
| dövlət sektoru | 62014 | 64015 | 66016 | 68017 |
| qeyri-dövlət sektoru | 1332986 | 1390611 | 1448236 | 1505861 |
| Fəaliyyət növləri üzrə | | | | |
| Mədənçıxarma sənayesi | 1271 | 1311 | 1352 | 1392 |
| Emal sənayesi | 1160893 | 1202357 | 1243822 | 1285286 |
| O cümlədən, | | | | |
| Dəri məmulatları və ayaqqabı istehsalı | 1521 | 1582 | 1643 | 1703 |
| Kimya sənayesi və əczaçılıq məhsulları | 2695 | 3190 | 3686 | 4181 |
| Avtomobil, qoşqu və yarımqoşqular | 4609 | 4573 | 4536 | 4499 |
| Su təchizatı, çirkli suların təmizlənməsi | 4761 | 4847 | 4934 | 5020 |
| Kağız istehsalı və nəşriyyat işi | 13291 | 13991 | 14691 | 15391 |
| Emal sənayesinin sahələri | 47662 | 49089 | 50516 | 51944 |
| Oduncaqların emalı | 53434 | 55086 | 56738 | 58390 |
| Toxuculuq və tikiş sənayesi | 57316 | 59392 | 61468 | 63544 |
| Metallurgiya sənayesi | 56572 | 59186 | 61799 | 64413 |
| Elektrik enerjisi, qaz, buxar sənayesi | 72341 | 74658 | 76976 | 79293 |
| Rezin və plastik kütlə məmulatları | 99456 | 103239 | 107022 | 110804 |
| Digər qeyri-metal mineral maddələr | 142759 | 149671 | 156584 | 163496 |
| Ümumi qida məhsullarının istehsalı | 689544 | 712523 | 735502 | 758481 |

# Əsas kapitala yönəldilən vəsaitlər

- Əsas kapitala yönləndilən vəsaitlər üzrə 2005/2022-ci il və 2020/2022-ci il tarixlərindəki göstəricilər analitik təhlil edilərək belə nəticəyə gəlmək mümkündür ki, növbəti illərdə (2024/2030-cu il tarixlərində) inkişaf dinamikasına təsir edən amillərin sabit qalması şəraitində və müvafiq olaraq inkişaf dinamikasının davamlı artması üçün 2022-ci il ilə müqayisədə əsas kapitala yönləndirilən vəsaitlər minimum olaraq 2027-ci ilin sonunda ümumi olaraq ortalama 49% artırılaraq 484.797.700AZN təşkil etməsi, o cümlədən 2030-cu ilin sonunda ümumi olaraq ortalama 66% artırılaraq 540.247.800AZN təşkil etməsi gərəklidir.
- Aşağıdakı cədvəldə analitik təhlilə əsasən əsas kapitala yönləndirilməsi gərəkli olan vəsaitlər üzrə göstəricilər əks olunmuşdur.

| | 2024 | 2025 | 2026 | 2027 | 2028 | 2029 | 2030 |
|---|---|---|---|---|---|---|---|
| **Əsas kapitala yönəldilən vəsaitlər** | 429347.5 | 447830.9 | 466314.3 | 484797.7 | 503281.0 | 521764.4 | 540247.8 |
| **2022-ci ilə nisbətən artım tempi, %** | 32 | 38 | 43 | 49 | 55 | 60 | 66 |

# Rəqabət Mühiti

- Naxçıvanda mövcud rəqabət mühiti təhlil edərkən mövcud sənaye sahələrinin rəqabət qabiliyyətini və bazardakı mövqeyini qiymətləndirməsi aşağıdakı kimidir.

| Sənaye sahəsi | Rəqabət şərtləri | Əsas rəqiblər |
|---|---|---|
| Qida sənayesi | Rəqabətli | Yerli və xarici şirkətlər |
| Tekstil | Orta səviyyəli rəqabət | İdxal məhsulları |
| Farmasevtika | Aşağı rəqabət | Yeni bazar iştirakçıları |
| Bərpa olunan enerji | Orta səviyyəli rəqabət | Beynəlxalq şirkətlər |

**Cədvəl 23: Rəqabət şərtləri və əsas rəqiblər**

# Rəqabət mühiti

- **Qida sənayesi:** Yerli və xarici şirkətlər arasında yüksək rəqabət mövcuddur. Keyfiyyət, qiymət və məhsul çeşidinin genişliyi rəqabət üstünlüyü təmin edə bilər.
- **Tekstil:** İdxal məhsulları ilə qismən rəqabət mövcuddur. Yüksək keyfiyyətli yerli məhsulların istehsalı və ixracı rəqabət qabiliyyətini artıracaq.
- **Farmasevtika:** Bu sahədə rəqabət hələ ki aşağı səviyyədədir, lakin yeni bazar iştirakçılarının daxil olması ilə rəqabət artacaq.
- **Bərpa olunan enerji:** Beynəlxalq şirkətlərlə rəqabət mövcuddur. Naxçıvanın coğrafi və iqlim şəraiti bu sahədə üstünlük yarada bilər.

# Rəqabət Mühiti

- Naxçıvan Avtomobil Zavodu (NAZ): bu zavod 2006-cı ildə qurulub və əsasən müxtəlif növ avtomobillərin istehsalı ilə məşğuldur. Zavodun istehsal gücü yüksəkdir və Respublikanın avtomobil tələbatını ödəməklə yanaşı, xarici bazarlara da məhsul ixrac etmə potensialı vardır.
- Reges Sement: "Reges Sement" MMC, Naxçıvan Muxtar Respublikasında sement istehsalı sahəsində böyük layihələrdən biridir. Zavod 2009-cu ildə tikilməyə başlanmış və 2012-ci ildə klinker və sement xəttləri istifadəyə verilmişdir. Zavod Muxtar Respublikanın sement tələbatını tam ödəyir və yüksək keyfiyyətli məhsulları ilə tanınır.
- Cahan Holdinq: bu holding tütün məhsulları istehsal edir və regionda mühüm sənaye strukturlarından biridir. "Cahan Tobacco İnternational" adı ilə fəaliyyət göstərən şirkət, müxtəlif siqaret brendləri və digər tütün məhsullarını istehsal edir. Şirkət həmçinin geniş miqyasda ixrac fəaliyyəti ilə məşğuldur.



# Əsas Nəticələr

**Araşdırmanın əsas nəticələri aşağıdakı kimi yekunlaşdırıla bilər:**

- **Mövcud sənaye istehsalı:** Naxçıvan Muxtar Respublikasında mövcud sənaye istehsalı əsasən qida sənayesi, tikinti materialları və tekstil sahələrində cəmlənmişdir.
- **Yeni sənaye sahələrinin perspektivləri:** glutensiz un və makaron, şəkərsiz qida məhsulları kimi sağlam qida məhsullarının istehsalı və ixracı böyük perspektivlərə malikdir.
- **Infrastrukturun yaxşılaşdırılması:** yeni sənaye müəssisələrinin yaradılması üçün mövcud infrastrukturun təkmilləşdirilməsi və zəruri avadanlıqların quraşdırılması vacibdir.
- **Xarici mütəxəssislərin cəlb edilməsi:** xarici mütəxəssislərin işə cəlb edilməsi ilə texnoloji bilik və təcrübənin artırılması mümkündür.
- **Daxili və xarici bazarların təhlili:** daxili bazarda sağlam qida məhsullarına artan tələbat və beynəlxalq bazara çıxış imkanları, yeni sənaye müəssisələrinin məhsullarını düzgün bazarlara yönəltməyə imkan verir.

**Daxili bazar tələbatını qarşılama imkanları və idxal həcmi nəzərə alınmaqla təhlillər apararsaq:**

- **Glutensiz un və makaron:** Bu məhsulların daxili tələbatı yüksəkdir. Hazırda böyük bir hissəsi idxal edilir, lakin yerli istehsal bu tələbatı qarşılamaq potensialına malikdir.
- **Pambıq məhsulları:** Tekstil sənayesi üçün əsas xammal olan pambıq məhsullarının daxili tələbatı və idxal həcmi yüksəkdir. Yerli istehsalın artırılması bu sahədə idxaldan asılılığı azaldacaq.
- **Günəş panelləri:** Alternativ enerji mənbələrinin inkişafı üçün günəş panellərinə olan tələbat artmaqdadır. Bu sahədə yerli istehsal potensialı yüksəkdir.

# Sənaye müəssisələrinin yaranması

| Rayon | Əkin sahəsi (hektar) | İllik məhsuldarlıq (ton) | Potensial sənaye məhsulları |
|---|---|---|---|
| **Şərur** | 5000 | 20000 | Glutensiz un, konservlər |
| **Sədərək** | 4000 | 16000 | Glutensiz makaron, qida məhsulları |

| Mərhələ | Əsas işlər | Təxmini müddət |
|---|---|---|
| **Ərazi seçimi və hazırlığı** | Ərazi seçimi, torpaq hazırlığı | 3 ay |
| **Infrastrukturun yaradılması** | Yolların tikintisi, su və elektrik təchizatı | 6-9 ay |
| **Tikinti işləri** | Bina tikintisi, avadanlıqların quraşdırılması | 12-18 ay |
| **İşə başlama** | Istehsalat prosesinin başladılması | 1-3 ay |

| Mərhələ | Əsas işlər | Təxmini müddət |
|---|---|---|
| **Mütəxəssis seçimi** | Xarici mütəxəssislərin seçilməsi | 1-2 ay |
| **Təlim proqramları** | Yerli işçilərə təlimlərin keçirilməsi | 3 ay |
| **İşə başlama** | Xarici mütəxəssislərin işə başlaması və idarəetmə | 1-3 ay |

Bu rayonlarda sənaye müəssisələrinin yaradılması üçün aşağıdakı addımlar atılmalıdır:

**Mövcud əkin sahələrinin təhlili:** Əkin sahələrinin mövcud vəziyyəti və məhsuldarlığı təhlil edilmələrək belə nəticəyə gəlmək mümkündür ki, bu sahələrdə xammal ehtiyyatı təşkil edəcək bitkilərin daha yaxşı yetişdirilməsi və məhsuldarlığın artırılması üçün infrastrukturun qurularaq müvafiq innovativ sistemlərin qurulmasının lazım olduğu müəyyən edilmişdir.

**Ərazi seçimi:** sənaye müəssisəsinin yerləşdirilməsi üçün ən uyğun ərazilər əkin sahələrinə yaxın yerlərdə. Bu ərazilərin logistika imkanları, su və enerji təchizatı, nəqliyyat əlaqələri kimi faktorlar nəzərə alınmalıdır.

**Infrastrukturun yaradılması:** Sənaye müəssisəsi üçün zəruri olan infrastruktur yaradılması üçün yolların, elektrik xətlərinin, su təchizatı sistemlərinin və digər zəruri infrastrukturun təkmilləşdirilməsi gərəklidir.

**Istehsal avadanlıqlarının alınması:** Sənaye müəssisəsində istifadə olunacaq avadanlıqların alınması və quraşdırılması həyata keçirilməlidir. Bu avadanlıqların müasir və səmərəli olması ən vacib nüansdır.

# NƏTİCƏ

- Bu araşdırma, Naxçıvan Muxtar Respublikasında sənaye müəssisələrinin yaradılması perspektivliyinin müxtəlif aspektlərini əhatə edən geniş bir təhlil edir və və gələcəkdə bu sahədə inkişaf potensialını ortaya qoyur.  Mövcud infrastruktur, texnologiyalar, istehsal xərcləri və müddətləri, ekoloji səmərəlilik və dünya təcrübəsi nəzərə alınaraq, NMR-də sənaye məhsulu istehsalı ilə əlaqədar olan sektorun inkişafı üçün sahibkarların, investorların nəzərə almalı olduğu məqamların əhəmiyyəti vurğulanır.
- Araşdırma nəticəsində, bu sektorun inkişaf etdirilməsi üçün qabaqcıl texnologiyaların tətbiqi, ekoloji səmərəlilik və yenilənən enerji mənbələrindən istifadə kimi strategiyalar təklif olunur. Bu tövsiyələr Naxçıvan Muxtar Respublikasında sənaye müəssisələrinin yaradılması və inkişaf etdirilməsi üçün əsas istiqamətləri müəyyən edir.
- Sahibkarlar üçün yüksək əlavə dəyər yaradan məhsulların istehsalı, bərpa olunan enerji mənbələrinin inkişafı və mövcud infrastrukturun yaxşılaşdırılması kimi sahələrdə yatırım etmək əlverişlidir. Dövlət isə infrastrukturun genişləndirilməsi, azad iqtisadi zonaların yaradılması və iqtisadi əlaqələrin genişləndirilməsi ilə bu inkişafı dəstəkləməlidir. Bu yanaşma ilə Naxçıvanın iqtisadi potensialı tam şəkildə realizə edilə bilər.
- Nəticələr göstərir ki, mövcud resurslar, əlverişli coğrafi mövqe və işgüzar mühit Naxçıvanın sənaye sektorunun inkişafı üçün böyük imkanlar yaradır. İnvestisiya strategiyaları və təkliflər əsasında sahibkarlar bu potensialı maksimum istifadə edə bilərlər. Naxçıvan Muxtar Respublikasında sənaye istehsalının həcmi və müxtəlifliyi son illərdə əhəmiyyətli dərəcədə artmışdır.
- Qida sənayesi, tikinti materialları sənayesi, yüngül sənaye, kimya sənayesi və elektrik enerjisi istehsalı kimi əsas sahələr NMR iqtisadiyyatının inkişafında mühüm rol oynayır. Bu sahələrdəki davamlı inkişaf NMR-in iqtisadi gücünü artırmağa və əhalinin rifahını yüksəltməyə xidmət etdiyi qeyd edilir.
- Naxçıvan Muxtar Respublikasının coğrafi və iqlim şəraiti, mövcud sənaye infrastrukturu və əmək bazarı, sənaye müəssisələrinin yaradılması üçün əlverişli şərait yaradır. Qida, tikinti materialları və tekstil sənayesi sahələrində mövcud imkanlar və perspektivlər təhlil edilərək, bu sahələrdə yeni müəssisələrin yaradılması və mövcud müəssisələrin modernləşdirilməsi tövsiyə olunur. Daxili və xarici bazarlara çıxış imkanlarının artırılması və müasir texnologiyaların tətbiqi ilə bu sahələrin inkişafı təmin edilə bilər.

# Sahibkarlar üçün tövsiyələr

***Yüksək əlavə dəyər yaradan məhsulların istehsalı***

- ***Qida sənayesi:*** Naxçıvanda kənd təsərrüfatı məhsullarının bolluğu qida sənayesində yüksək əlavə dəyər yaradan məhsulların istehsalını əlverişli edir. Qida sənayesinə yatırımlar aşağıdakı sahələrdə gəlirlidir:
  - **Glutensiz məhsullar:** Sağlam qida tələbatının artması fonunda glutensiz un və makaron kimi məhsulların istehsalı gəlirlidir.
  - **Orqanik konservlər:** Ekoloji təmiz məhsulların istehsalı və ixracı üçün böyük potensial var.
- ***İxrac potensialı:***
  - Yerli tələbatın ödənməsi ilə yanaşı, ixrac həcmlərinin artırılması da mümkündür.
  - İxrac bazarlarının genişləndirilməsi üçün beynəlxalq standartlara uyğun məhsul istehsalı təşviq edilməlidir.
- ***Texniki təchizat:***
  - Qida sənayesində texnoloji avadanlıqların yenilənməsi və modernizasiyası vacibdir.
- **Əmək bazarı:**
  - Qida sənayesində ixtisaslı işçi qüvvəsinə tələbat yüksəkdir. Bu məqsədlə təlim və təhsil proqramları təşkil edilməlidir.
- ***Potensial investisiya:***

- Qida sənayesinə yatırımların həcmi 50 milyon azn ətrafında ola bilər və gəlirlilik səviyyəsi təxminən 25%-dir.

# Sahibkarlar üçün tövsiyələr

***Tikinti materiallarının istehsalı***

- ***Mövcud baza:*** Naxçıvanda tikinti materialları istehsalı üçün mövcud xammal bazası əlverişlidir. Sement, kərpic və gips kimi materialların istehsalı geniş potensiala malikdir.
- ***Bazarda tələbat:*** Regionda tikinti sektorunun inkişafı bu sahəyə olan tələbatı artırır.
- **İxrac imkanları:** Tikinti materiallarının ixracı üçün qonşu ölkələrlə iqtisadi əlaqələrin genişləndirilməsi imkanları araşdırılmalıdır.
- ***İnfrastruktur:*** Tikinti materiallarının istehsalı üçün infrastruktur və loqistika imkanlarının yaxşılaşdırılması vacibdir.
- ***Potensial investisiya:*** Tikinti materialları istehsalına yatırımların həcmi 40 milyon azn ətrafında ola bilər və gəlirlilik səviyyəsi təxminən 20%-dir.

# Sahibkarlar üçün tövsiyələr

- ***Tekstil və geyim sənayesi***
- ***Əmək bazarı:***
  - Tekstil sənayesində ixtisaslı işçi qüvvəsi mövcuddur və ənənəvi sənətkarlıq bu sahədə inkişaf üçün əsasdır.
- ***Məhsul çeşidliliyi:***
  - Pambıq məhsulları və geyim istehsalı yüksək dəyər yaradır və ixrac üçün potensial imkanlar mövcuddur.
- ***Bazarda tələbat:***
  - Yerli və xarici bazarlarda yüksək keyfiyyətli tekstil məhsullarına olan tələbat artmaqdadır.
- ***Potensial investisiya:***
  - Tekstil sənayesinə yatırımların həcmi 30 milyon azn ətrafında ola bilər və gəlirlilik səviyyəsi təxminən 30%-dir.

# Sahibkarlar üçün tövsiyələr

***Bərpa olunan enerji mənbələri***

- ***Mövcud potensial:*** Naxçıvanda günəş və külək enerjisinin inkişafı üçün əlverişli iqlim şəraiti mövcuddur.
- **Enerji tələbatı:** Bərpa olunan enerji mənbələrinin inkişafı regionun enerji tələbatını ödəyə bilər və artıq enerjinin ixracı mümkündür.
- ***İnfrastruktur:***
  - Enerji infrastrukturunun genişləndirilməsi və modernizasiyası bu sahəyə yatırımların artmasına səbəb ola bilər.
- ***Potensial investisiya:***
  - Bərpa olunan enerji mənbələrinə yatırımların həcmi 60 milyon azn ətrafında ola bilər və gəlirlilik səviyyəsi təxminən 35%-dir.